# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Oşda beynəlxalq festivalın əsas təşkilatçılarından biri olub

**Qırğız Respublikasının Oş şəhərində Çingiz Aytmatovun 95 illik və Muxtar Auezovun 125 illik yubileylərinə həsr olunmuş VII Beynəlxalq "Dünya xalqlarının dastanları" Festivalı keçirilib. Festivalın əsas təşkilatçıları sırasında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu yer alıb.**

Fonddan bildirilib ki, festival çərçivəsində dörd gün ərzində 20-dən çox ölkədən elmi, mədəni və yaradıcı nümayəndə heyətləri "Zaman və məkanda dastançının mətni" beynəlxalq elmi-praktik simpoziumunda, sənətkarlıq və xalq yaradıcılığı sərgisində, rəvayətçilərin və dastançıların müsabiqəsində, eləcə də "Mədəni müxtəlifliyin paradı" adlı teatrlaşdırılmış qala - konsertində iştirak ediblər.

Festivalda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu təşkilatın layihə rəhbəri Mirbek Karıbayev təmsil edib.




Festival çərçivəsində "Zaman və məkanda dastançının mətni" adlı beynəlxalq elmi-praktik simpoziumu gerçəkləşib.

Simpoziumda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş Azərbaycanlı manasşünas Adil Cəmilin "Manas eposu və türk dastançılıq ənənələri" kitabının təqdimatı keçirilib.

Tədbirdə 20-dən çox ölkədən 60-a yaxın alim iştirak edib.

Azərbaycan. - 2023.- 26 may.- S.11.